*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 211-215*

https://doi.org/10.62837/2025.2.211

**QULIYEVA PƏRVANƏ ELMAR QIZI**
**Gəncə Dövlət Universiteti**
pervane.quliyeva73@gmail.com

# CƏLİL MƏMMƏDQULUZADƏNİN «ÖLÜLƏR» KOMEDİYASININ JANR XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** komediya, ədəbiyyat, sənətkar, milli, janr, ədəbi inkişaf, xüsusiyyət, yaradıcılıq.
**Ключевые слова:** комедия, литература, художник, национальный, жанр, литературное развитие, особенность, творчество.
**Key words:** comedy, literature, artist, national, genre, literary development, feature, creativity.

«Ölülər» janrına görə satirik komediyadır. Əsərdə komediyanın əsas tələblərindən birinə uyğun olaraq cəmiyyətin gülünc cəhətləri, şüurlarda kök salmış mövhumat azarı lağa qoyulur. Bununla belə, «Ölülər» özünəməxsus janr xüsusiyyətlərinə malikdir. Əsərə bu xüsusiyyətləri gətirən isə komediyanın qəhrəmanı, ağıllı, lakin artıq adam halında düşmüş İsgəndər sürətidir. «Ölülər»dən əvvəl də Azərbaycan komediyalarında ağıllı ziyalı surətləri var idi. M.F.Axundovun «Hekayəti-müsyo Jordan və dərviş Məstəli şah» komediyasında Şahbaz bəy; «Hekayəti molla İbrahimxəlil kimyagər» komediyasında şair Hacı Nuru; N.Vəzirovun «Daldan atılan daş topuğa dəyər» komediyasında həkim İsgəndər bəy; «Yağışdan çıxdıq, yağmura düşdük» komediyasında Əşrəf bəy surətləri oxumuş, ağıllı ziyalılar tipləri idi.

Lakin bunların heç birinin taleyi İsgəndərin taleyi qədər ağır, heç birinin dərdi İsgəndərin dərdi qədər böyük deyildi və heç biri İsgəndər kimi cəsarətlə avamlar mühitinə qarşı çıxmamışdır. Hacı Nuru nisbətən İsgəndərə yaxındır. Bu sürətlərdən fərqli olaraq İsgəndər öhdəsinə daha ağır bir vəzifə götürmüşdür.

Dərindən diqqət edəndə görürük ki, İsgəndər özünü və ya yaxın adamlarını deyil, həqiqəti, ağlı, kamalı, real düşüncəni, mədəniyyəti, müasirliyi müdafiə edir. Vətəndaşları ayıltmağa, onlara həqiqəti başa salmağa Hacı Nuru kimi onlara dost-düşmənlərini tanıtmağa çalışır. Lakin bu xeyirxah niyyətləri mühit qiymətləndirə bilmir. Əksinə, İsgəndər hər addımda təhqir edilir, Hacı Nurunun da xalqın tarixini yazmışam deməsinə heç kəs qulaq asmır, cəmiyyətdən uzaqlaşdırılır. Avamlar onu «kefli İsgəndər» çağırıb ələ salırlar. İsgəndər isə özünü cahillər tərəfindən təhqir edilməsinə ağlın, kamalın, mədəniyyətin təhqir edilməsi kimi baxır. Məhz bu geniş anlayışına görə onun iztirabları bir faciə qəhrəmanının iztirablarına çevrilir, həm də bu faciə bir nəfərin yox, cəmiyyətin faciəsini təmsil edir. [1,124]

İsgəndər amansızcasına tənqid edib güldüyü avamların həyatına, taleyinə də əslində gülməli bir hadisə kimi deyil, faciə kimi baxır. O, avamlığı, cəhaləti təkcə bir yığın cahillər üçün deyil, ümumiyyətlə cəmiyyət üçün, xalq, vətən üçün böyük faciə hesab edir.

Beləliklə, «Ölülər»də əsas konflik mövhumat, cəhalətlə ağıl, elmi dünyagörüş arasında toqquşmadan ibarətdir ki, nəticədə bu toqquşma ağlın qələbəsi ilə nəticələnir: İsgəndər haqlı olduğuna görə qalib gəlir.

Əsrin başlanğıcında camaat arasında ancaq elmsiz, ağıldan, mərifətdən kəm olan adamlar: Mir Bağır ağalar, Hacı Həsənlər, fırıldaqçı şeyxlər hörmətli adamlar sayılırdı. Tamaşanın sonunda isə camaat arasında artıq ən hörmətli adam İsgəndərdir. Məhz bu səbəbə görə də biz İsgəndəri, onun müəyyən zəif cəhətlərinə baxmayaraq, ağlın, kamalın və həqiqətin təntənəsini nümayiş etdirən bir sürət kimi sevirik.

Komediyanın kompozisiyası və sujeti sənətkarlıqla düşünülmüşdür. Bədii müqəddimə hadisələrin və xarakterlərin hərəkət edəcəyi tipik şəraiti çox aydın nəzərə çatdırır. Şeyxin gəlməsi ilə başlayan düyün son dərəcə yığcam olmaqla bərabər, həm də xarakterlərin açılmasına kömək edir.

Komediyanın zirvəsi (qəbristanlıq səhnəsi) bütün mənfi tiplərin mənəvi miskinliyinin açılmasına gətirib çıxarır, hətta yığcam şəkildə onların keçmiş bəd əməlləri ilə tamaşaçını tanış edir.

Nəhayət, Şeyx Nəsrullah və Şeyx Əhmədin qaçması ilə hadisələr nəticələnir. Əsərdə iştirak edən personajın son vəziyyətini göstərən bu səhnə İsfahan lotusuna aldanan adamların gülünc və acınacaqlı aqibətini çox ibrətli, bədii detallarla (ataların qızlarını aparması və s.) əks etdirir.

Komediyanın finalı (İsgəndərin nitqi) onun qələbəsinin, ağlın qüdrətini əks etdirən bir yekun kimi səslənir.

Komediyanın dili və dram sənətinin qanunlarına uyğundur. Tiplərdən hər biri öz xarakterlərinə uyğun bir tərzdə danışır. Mükalimələrdə dramaturqun ustalığı xüsusilə nəzərə çarpır.

Dərin fəlsəfi və ictimai məzmuna malik olan «Ölülər» bir tərəfdən ruhaniliyə, fanatizmə və xalqı qəsdən cəhalətdə saxlayan siyasi köləliyə, ikinci tərəfdən vətəndaşları bir-birinə düşmən edən xüsusi mülkiyyətçilik ehtiraslarına, meşşanlığa qarşı üsyan idi, həm də yalnız müəllifin deyil, cəmiyyətin bütün müti qüvvələrinin üsyanı idi. Komediyanın böyük şöhrət qazanmasının səbəbi də bu idi. [3,69]

«Ölülər»dən sonra Cəlil Məmmədquluzadə 4 pərdəli «Anamın kitabı» (1920) və «Dəli yığıncağı» komediyalarını da yazmışdır.

«Anamın kitabı» komediyasında XX əsrin birinci on illiyi Azərbaycan həyatı üçün ən mühüm siyasi əhəmiyyətli problemlərdən biri olan xalq, vətən və ziyalılar məsələsi qoyulmuşdur.

Bu illər Azərbaycanda xalqa bağlı olan mütərəqqi ziyalılar böyük qüvvə təşkil etsə də, xalqın uzaq olan ziyalıları da az deyildi.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 211-215*

Dramaturq bu ananın övladları olan üç qardaşın simasında xalqdan uzaq olan belə ziyalıların tipik sürətini yaratmışdır. Bu qardaşlardan İranda, Nəcəfdə təhsil alan Mirzə Məmmədəlinin «sənəti «küsuf-xüsuf» duası yazmaq, mövhumata rəvac verməkdir. Türkiyədə yarımçıq «elmi-qafiyə» öyrənib şairlik iddiasına düşən Səməd Vahid dünya işləri, xalq həyatı ilə heç bir əlaqəsi olmayan, mətləbsiz cızma-qaraları ilə başqa cür mövhumatı: «tiryək azarına bənzəyən xəyalat mədəniyyəti» mövhumatını yayır. Peterburqda təhsil alan üçüncü qardaş – Rüstəm bəy bunlara nisbətən müasir elmlərə az- çox xəbərdar bir adam olsa da, xalqın dilindən, arzu və əməlindən xəbərsizdir.

Sadə xalq adamlarından heç biri bu «alim» qardaşları başa düşmür. Qardaşlar özləri də bir-birini başa düşmür və bir-birinin «elminə» isteza edirlər. Mirzə Məmmədəlinin «küsif - xüsif» duasından Rüstəm bəyin tərtib etdiyi lüğətdən Mirzə Məmmədəlinin, Səməd Vahidin yazdığı mənzumələrdən hər ikisinin zəhləsi gedir.

Vətəni təmsil edən ana – Zəhra bəyim ortalıqda qalır: süd verib bəslədiyi, boya-başa çatdırdığı övladlarından heç birinin dilini, əməlini, nə məqsədlə yaşadıqlarını, hansı məsləkə qulluq etdiyini anlaya bilmir.

Xalqan uzaq düşmüş bu «alim» qardaşları və onların dostlarını birləşdirən bir cəhət varsa, o da hamsının siyasi kütlüyü, siyasi savadsızlığı, idealsızlığı və vətənsizliğidir. Xalq, vətən, millət, azadlıq, siyasət sözləri bunların heç yuxusuna da girmir.

Qəribədir, hökumət dairələri, çar xəfiyyəsi qardaşların «fəaliyyətindən» şübhəyə düşür. Qafqaz canişininə belə bir məlumat çatır ki, guya bu qardaşlar milli istiqlaliyyət eşqinə düşüb, «İran və Rusiya azərbaycanlılarından ibarət bir müstəqil hökumət əmələ gətirmək» istəyirlər.

Lakin qardaşların kitabxanalarında aparılan axtarışdan məlum olur ki, «alimlər» siyasətlə heç bir əlaqəsi olmayan, hökumət üçün «ən zərərsiz, ən səlamət bəndələr»dir.

Ana tərbiyəsi ilə böyümüş azsavadlı Gülbahar alim olmasa da, bu təhqirə dözə bilmir. Qardaşların həyatla əlaqəsi olmayan kitablarına od vurub yandırır.

Müəllif rəmzə müraciət edir: bu evdə bir müqəddəs kitab da var ki, «Anamın kitabı» adlanır. Bu kitabı bütün əsər boyu vətəni təmsil edən ana – Zəhra bəyim qoynunda gəzdirir. Bu kitab vətən ziyalılarını xalqa yaxınlaşmağa, vətənə, insanlığa xidmət etməyə, xalqın dilini, əməlini, arzu və ehtiyaclarını başa düşməyə çağırır. Son səhnədə kitab oxunur, ana Vətənin öz ziyalılarına müraciəti səslənir:

«Yer, göy, ay və ulduzlar göylərdə seyr edib gəzə–gəzə genə əvvəl-axır günün başına dolanırlar; çünki bunlar hamısı qədim əzəldə gündən qopub ayrılmış parçalardır.

Mən ehtiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı dolansalar, genə əvvəl – axır anaları Zəhranın… ətrafında gərək dolansınlar; çünki ay və ulduzlar şəmsin parçaları olan kimi, bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin

halına ki, təbiətin həmən qanununu pozmaq istəyər! Onun insafı və vicdanı ona müdamül – həyat əziyyət edəcək, nə qədər canında nəfəs var, peşman olacaq». [5,78]

«Anamın kitabı»nda ədibin müəyyən qrup ziyalıların canlı xalq dilinə, ana dilinə yabançı olmasını daha qabarıq nəzərə çatdırması və Səməd Vahid kimi «elmi-qafiyə» azarına tutulanları kəskin satira ilə tənqid etməsi təsadüfi deyildi. Bu, müəllifin daxili aləmində gedən uzun müddətli bir mübarizənin davamı idi.

C.Məmmədquluzadənin ədəbi-bədii dilin və mətbuat dilinə yaxınlaşdırılmasında M.F.Axundov və H.Zərdabidən sonra isə böyük tarixi xidmətləri olan ədiblərdən biri idi. Hələ 1906- cı ildə «Molla Nəsrəddin»-in birinci nömrəsində ədib yazıçılara və oxuculara müraciətlə: «Salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya – yırğalaya sizə türk dilində lay-lay deyirdi. Hərdən bir ana dilində danışmaq ilə keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?» - deyə onları geniş kütlələrin başa düşəcəyi bir dildə yazmağa, zəngin xalq dili xəzinəsindən istifadə etməyə, ədəbi-bədii dildə xəlqiliyi qorumağa çağırırdı.

**Ədəbiyyat:**

1. C.Məmmədquluzadə. Dram əsərləri. Bakı, 1958.
2. C.Məmmədquluzadə. Əsərləri. Ic. Bakı, 1966
3. C.Məmmədquluzadə. Əsərləri. IIc. Bakı, 1967. IIIc. 1967.
4. M.Vəliyev. Cəlil Məmmədquluzadənin dramaturgiyası. Bakı, 1954.
5. X.Əlimirzəyev. Problemlər və xarakterlər dramaturgiyası. Bakı, 1979.

**Xülasə**

**CƏLİL MƏMMƏDQULUZADƏNİN «ÖLÜLƏR» KOMEDİYASININ JANR XÜSUSİYYƏTLƏRİ**

Komediyanın kompozisiyası və sujeti sənətkarlıqla düşünülmüşdür. Bədii müqəddimə hadisələrin və xarakterlərin hərəkət edəcəyi tipik şəraiti çox aydın nəzərə çatdırır. Şeyxin gəlməsi ilə başlayan düyün son dərəcə yığcam olmaqla bərabər, həm də xarakterlərin açılmasına kömək edir. Komediyanın zirvəsi (qəbristanlıq səhnəsi) bütün mənfi tiplərin mənəvi miskinliyinin açılmasına gətirib çıxarır, hətta yığcam şəkildə onların keçmiş bəd əməlləri ilə tamaşaçını tanış edir.

Nəhayət, Şeyx Nəsrullah və Şeyx Əhmədin qaçması ilə hadisələr nəticələnir. Əsərdə iştirak edən personajın son vəziyyətini göstərən bu səhnə İsfahan lotusuna aldanan adamların gülünc və acınacaqlı aqibətini çox ibrətli, bədii detallarla (ataların qızlarını aparması və s.) əks etdirir.

Əsərin finalı (İsgəndərin nitqi) onun qələbəsinin, ağlın qüdrətini əks etdirən bir yekun kimi səslənir. Komediyanın dili və dram sənətinin qanunlarına uyğundur. Tiplərdən hər biri öz xarakterlərinə uyğun bir tərzdə danışır. Mükalimələrdə dramaturqun ustalığı xüsusilə nəzərə çarpır.

**Summary**

**GENRE FEATURES OF JALIL MAMMADGULUZADE'S COMEDY "THE DEAD"**

**Hd.tch.P.E.Quliyeva**

The composition and plot of the comedy are masterfully thought out. The artistic introduction very clearly conveys the typical conditions in which the events and characters will act. The knot that begins with the arrival of the sheikh is extremely concise, but also helps to reveal the characters. The climax of the comedy (the cemetery scene) leads to the revelation of the spiritual poverty of all negative types, and even briefly introduces the audience to their past bad deeds.

Finally, the events culminate in the escape of Sheikh Nasrullah and Sheikh Ahmed. This scene, showing the final state of the characters involved in the work, reflects the ridiculous and pitiful fate of people who were deceived by the Isfahan lotus with very instructive, artistic details (fathers taking away their daughters, etc.).

The finale of the work (Iskander's speech) sounds like a conclusion reflecting his victory and the power of reason. It corresponds to the language of the comedy and the laws of dramatic art. Each of the types speaks in a manner appropriate to their characters. The playwright's mastery is particularly evident in the dialogues.

**Резюме**

**ЖАНРОВАЯ ХАРАКТЕРИСТИКА КОМЕДИИ ДЖАЛИЛА МАМЕДГУЛУЗАДЕ «МЕРТВЫЕ»**

**Ст.пр.П.Е.Кулиева**

Композиция и сюжет комедии продуманы мастерски. Художественный пролог дает очень четкое представление о типичных обстоятельствах, в которых будут действовать события и персонажи. Узел, начинающийся с приходом шейха, чрезвычайно компактен, но также помогает раскрыть характеры. Кульминация комедии (сцена на кладбище) приводит к раскрытию нравственной нищеты всех отрицательных типов и даже кратко знакомит зрителей с их прошлыми злодеяниями.

Наконец, события завершились побегом шейха Насруллы и шейха Ахмеда. Эта сцена, показывающая последнее состояние персонажа, участвующего в произведении, отражает нелепую и печальную судьбу людей, обманутых лотосом Исфахана, с весьма поучительными, художественными деталями (отцы, уводящие дочерей и т. д.).

Финал произведения (выступление Александра) звучит как заключение, отражающее его победу и силу разума. Он следует языку комедии и законам драматического искусства. Каждый из типов говорит так, как соответствует его характеру. Мастерство драматурга особенно заметно в диалогах.

**Rəyçi: Dos.Axundova Naziymə M.q.**